QANUN № 02 (364), 2025 s. 129-134

**Əlimusayev Emin Nazim oğlu,**
Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Əmək və ekologiya hüququ kafedrasının doktorantı
E-poçt: eminalimusayev@gmail.com

**UOT 349.6**
**DOI: https://doi.org/10.30546/2218-9130.002.2025.0156**

# EKOLOJİ QANUNVERİCİLİKDƏ STANDARTLAŞDIRMA VƏ SERTİFİKATLAŞDIRMA: MÖVCUD PROBLEMLƏR VƏ HƏLLİ YOLLARI

***Açar sözlər**: ekologiya, sertifikatlaşdırma, ekoetiketləmə, texniki tənzimləmə, qanunvericilik, normayaratma.*

***Ключевые слова**: экология, сертификация, эко-маркировка, техническое регулирование, законодательство, законотворчество.*

***Keywords**: environment, certification, eco-labelling, technical regulation, legislation, law-making.*

## Giriş

Ətraf mühitin mühafizəsi və dayanıqlı inkişafın təmin edilməsində ekoloji hüquqi mexanizm xüsusi əhəmiyyət kəsb edir. Belə ki, bəşəriyyətin iqtisadi fəaliyyətinin yer kürəsinin təbii ehtiyatlarını tükətməsi, təbiəti çirkləndirməsi və iqlim dəyişikliyinə səbəb olması kimi amillər bu sahədə hüquqi tənzimləməni qaçılmaz edir. Çirklənmələri məhdudlaşdırmaq, bioloji müxtəlifliyi qorumaq və dayanıqlı inkişafı təmin etmək üçün dövlətlər ekoloji qanunvericilik aktları qəbul etmiş, bu sahədə müvafiq tənzimləyici çərçivələr yaratmışlar. Lakin sözügedən məqsədlərə nail olunmasında sərt imperativ normalarla yanaşı, könüllü əsaslarla həyata keçirilən ekoloji sertifikatlaşdırma və etiketləmə fəaliyyəti də mühüm rol oynayır.

Ekoloji sertifikatlaşdırma dedikdə malların və ya xidmətlərin ekoloji standartlara uyğun olmasının təsdiqlənməsi başa düşülür. Bu yolla şirkətlər öz istehsal etdikləri məhsulların ekoloji baxımdan təmiz olmasını təsdiq edə bilirlər. Xüsusilə ötən əsrin sonlarından etibarən ekoloji savadlılığın artması, istehlakçıların məhsul seçərkən həmin məhsulun ekoloji təmiz olmasına diqqət yetirmələrinə gətirib çıxarmışdır. Bu isə özlüyündə, şirkətlərin istehsal etdikləri məhsulların və ya göstərdikləri xidmətlərin ekoloji təmiz olmasının təsdiqlənməsində marağının artmasına səbəb olmuşdur. Belə ki, şirkətlər öz mallarının və ya göstərdikləri xidmətlərin ekoloji standartlara uyğunluğunu təsdiq etməklə öz müştərilərinin və səhmdarlarının güvənini qazanaraq bazarda üstünlük əldə edirlər. Bütün bunlar şirkətlərin ekosertifikatlaşdırma və etiketləməyə marağını artırmaqla yanaşı dövlət qurumları və müstəqil təşkilatların ekoloji standartları işləyib-hazırlamasına, habelə bu əsasda yeni sertifikatlaşdırma sxemləri hazırlamalarına gətirib çıxarmışdır.

Ekoloji təmiz məhsulların sertifikatlaşdırma yolu ilə ənənəvi məhsullardan fərqləndirilməsinin təmin edilməsi müştərilər üçün məhsul seçərkən

onun qiyməti və keyfiyyəti ilə yanaşı, həmin məhsulun istehsalının ətraf mühitə vurduğu zərərin də qiymətləndirilməsinin mümkünlüyünə imkan verir. Bu isə özlüyündə bazarda ekoloji təmiz məhsullar üçün müəyyən güzəştlərin tətbiqinə şərait yaradır. Belə ki, ekoloji təmiz məhsulların istehsalı bir çox hallarda ənənəvi məhsullara görə daha baha başa gəlir. Bunu nəzərə alaraq bir çox xarici dövlətlər ekoloji baxımdan təmiz məhsullar üçün ***yaşıl satınalmalar*** və ya digər güzəştlər vasitəsilə həmin məhsullar üçün tələbi artıraraq iqtisadi fəaliyyət zamanı təsərrüfat subyektləri tərəfindən ekoloji maraqların nəzərə alınmasını təmin edirlər.

**Beynəlxalq praktikanın araşdırılması.**

Ötən əsrin 70-80-ci illərindən başlayaraq ekoloji problemlərin kəskinləşməsi fonunda ekoloji savadlılığın artması şirkətləri öz sahibkarlıq fəaliyyətlərini ekoloji təmiz üsullarla həyata keçirməyə vadar etmişdir. Bu əsasda bir sıra dövlətlər, beynəlxalq təşkilatlar və qeyri-hökumət təşkilatları bir sıra ekoloji standartlar və texniki sənədlər işləyib hazırlamışlar.

Əsasən bu dövrlərdən başlayaraq ***yaşıl konsumerizm*** hərəkatının yüksəlməsi, yəni istehlakçıların məhsul seçərkən ekoloji təmizlik və dayanıqlılıq kimi meyarlara diqqət yetirməsi təsərrüfat subyektlərinin ekoloji sertifikatlaşdırmaya marağını artırmışdır. Xüsusilə iqlim dəyişikliyi və ətraf mühitin deqradasiyası kimi problemlər ekoloji təmiz məhsullara tələbatın artmasına səbəb olmuşdur.

Bu sahədə Almaniya təcrübəsi xüsusilə önəm daşıyır. Belə ki, alman hökuməti tərəfindən ***"Der Blaue Engel"*** *("Mavi mələk")* təşəbbüsü 1978-ci ildə irəli sürülmüşdür [1]. 40 ildən çox tarixi olan *"Der Blaue Engel"* proqramı geniş əhatə dairəsində müxtəlif mal və xidmətlərin ekoloji baxımdan təmiz olduğu təqdirdə xüsusi nişanlarla etiketlənməsini təmin edir.

Yaponiya da bu sahədə qabaqcıl dövlətlərdən biri olmuşdur. Yapon hökuməti tərəfindən ***"Eco Mark"*** *("Ekonişan")* proqramının əsası 1989-cu ildə qoyulmuşdur [6]. Bu proqramın əsas məqsədi ekoloji təmiz məhsulların xüsusi nişanlanmasını təmin etməklə istehlakçıların ekoloji baxımdan daha savadlı seçim edə bilməsini təmin etmək olmuşdur.

Amerika Birləşmiş Ştatlarında da ekoloji sertifikatlaşdırma və etiketləmə təşəbbüsləri ötən əsrin sonlarında başlamışdır. Bu sahədə ilkin layihələrdən biri olan ***"Green Seal"*** *("Yaşıl möhür")* təşkilatı 1989-cu ildə təsis edilmiş qeyri-kommersiya təşkilatı olaraq ekoloji standartlar əsasında sertifikatlaşdırma fəaliyyətini həyata keçirən təşkilatlardan biridir [2, s. 6-7]. Digər bir layihə isə 1992-ci ildə ABŞ hökuməti tərəfindən yaradılmış ***"ENERGY STAR"*** *("Enerji ulduzu")* layihəsidir. Bu layihə xüsusilə kompüterlər və digər elektron cihazların enerji sərfiyyatını azaltmaq məqsədi güdür [3, s. 2]. ABŞ təcrübəsində xüsusilə qeyd edilməli layihələrdən biri isə "***LEED"*** *("Leadership in Energy and Environmental Design" – "Enerji və Ekoloji Dizaynda Liderlik")* sertifikatlaşdırma sxemidir. Xüsusilə inşaat sahəsində ixtisaslaşmış "LEED" sistemi ekoloji baxımdan əlverişli olan binaların dizayn edilməsinə fokuslanmışdır [4].

Avropa İttifaqında sözügedən sahədə atılmış ilkin addımlardan biri məhz 1992-ci ildə ***"EU Ecolabel"*** *("Aİ Ekonişanlama")* mexanizmi olmuşdur. Bu mexanizmin əsas məqsədi malların və xidmətlərin ətraf-mühitə vurduğu ziyanı azaltmaqla istehlakçıları daha yaşıl seçimlər etməyə vadar etmək olmuşdur [5].

Yuxarıda qeyd olunanlarla yanaşı, ən mühüm ekoloji standartlardan biri məhz Beynəlxalq Standartlaşdırma Təşkilatı tərəfindən qəbul edilmiş ***ISO 14000*** seriyasına daxil olan standartlardır. Hazırda bir çox fərqli sahələrdə fəaliyyət göstərən şirkətlər üçün bu seriyaya daxil olan standartlar öz fəaliyyətlərində ekoloji maraqları qorumaq və öz istehlakçılarında güvən yaratmağın ən əlverişli yollarından birinə çevrilmişdir

[7]. Dünyada ekoloji problemlərin kəskinləşməsi fonunda ekoloji dayanıqlılıq şərtlərinin iqtisadi fəaliyyətə inteqrasiya edilməsinin əhəmiyyətinin artması ISO 14000 seriyasına daxil olan standartların əhəmiyyətini daha da artırır.

**Azərbaycan qanunvericiliyinin təhlili.**

Azərbaycan Respublikasının ekoloji qanunvericiliyində sertifikatlaşdırma fəaliyyətini təhlil etmək üçün ilk növbədə müvafiq normativ hüquqi aktların dairəsinin müəyyən edilməsi zəruridir. İlk növbədə qeyd edilməlidir ki, Azərbaycan Respublikasında standartlaşdırma fəaliyyətinin əsasları "Standartlaşdırma haqqında" 2019-cu il 17 may tarixli 1587-VQ nömrəli Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Həmin Qanuna əsasən standart dedikdə *"təkrar və ümumi istifadə üçün nəzərdə tutulan, mala (işə, xidmətə), onunla əlaqəli prosesə (o cümlədən idarəetmə sisteminə) və istehsal metodlarına dair norma, qayda və tövsiyələri müəyyən edən, tətbiqi könüllü olan normativ sənəd"* başa düşülür. Qanunun verdiyi anlayışdan da göründüyü kimi, standart ***tətbiqi könüllü olan*** sənəddir. Bu xüsusiyyət də onu texniki tənzimləmənin digər institutlarından, məsələn, texniki reqlamentlərdən fərqləndirir. Belə ki, "Texniki tənzimləmə haqqında" 2019-cu il 30 sentyabr tarixli 1669-VQ nömrəli Azərbaycan Respublikasının Qanununa əsasən texniki reqlament dedikdə isə *"mallara, onlarla əlaqəli proseslərə və istehsal metodlarına dair məcburi tələbləri müəyyən edən texniki-normativ hüquqi akt"* başa düşülür. Qeyd olunanlarla yanaşı, "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" 2014-cü il 30 may tarixli 965-IVQ nömrəli Azərbaycan Respublikasının Qanununa əsasən sertifikatlaşdırma dedikdə *"uyğunluğu qiymətləndirən qurum tərəfindən malın (xidmətin, işin), prosesin, idarəetmə sisteminin, işçi heyətinin müvafiq standartda, texniki reqlamentdə və digər normativ hüquqi aktda müəyyən olunmuş tələblərə uyğunluğunun kağız üzərində yazılı və ya elektron formada təsdiqi"* başa düşülür. Göründüyü kimi, hər hansısa standartlara uyğunluğun təsdiqlənməsi sertifikatlaşdırma yolu ilə həyata keçirilir. Bu fəaliyyət isə uyğunluğu qiymətləndirən qurumlar, yəni bu sahədə akkreditasiya olunmuş təşkilatlar, fiziki və hüquqi şəxslər tərəfindən həyata keçirilir.

Qeyd olunan normativ hüquqi aktlarla yanaşı, "Ətraf mühitin mühafizəsi haqqında" 1999-cu il 8 iyun tarixli 678-IQ nömrəli Azərbaycan Respublikasının Qanununun IV fəsli də ətraf mühitin, təbii ehtiyatların dövlət kadastrı və monitorinqi, standartlaşdırma və sertifikatlaşdırma fəaliyyətinə həsr edilmişdir. Lakin sözügedən aktların müqayisəli təhlili zamanı bir sıra kolliziyaların mövcud olduğunu müşahidə etmək mümkündür. Belə ki, "Ətraf mühitin mühafizəsi haqqında" Qanunun 1.8-ci maddəsinə əsasən "*ətraf mühitin mühafizəsi sahəsində məcburi standartlaşdırılan və sertifikatlaşdırılan ekoloji cəhətdən təhlükəli məhsulların (işlərin, xidmətlərin) siyahısını təsdiq etmək*" ətraf mühitin mühafizəsi sahəsində dövlətin hüquqlarından biridir. Bununla yanaşı, həmin Qanunun 20-ci maddəsinin II hissəsinə əsasən "*ətraf mühitin mühafizəsi sahəsində mövcud standartların və texniki tələblərin pozulması ilə məhsulların (məmulatların) işlənilməsi, hazırlanması, təchiz edilməsi (satışı), saxlanılması, nəql edilməsi, istifadəsi (istismarı) və təmiri, işlərin və xidmətlərin yerinə yetirilməsi qadağan edilir"*. Göründüyü kimi, Qanun ***məcburi standartlaşdırılan*** və ***sertifikatlaşdırılan*** məhsulların dairəsi müəyyən edir və ***standartların pozulması*** ilə həyata keçirilən fəaliyyətləri ***qadağan edir***. Lakin yuxarıda da qeyd edildiyi kimi, standart ***tətbiqi könüllü olan*** sənəddir. Bu halda iki normativ hüquqi akt arasında kolliziya yaranır. Belə ki, əgər bir sənədin tətbiqi könüllüdürsə, bu halda ona əməl edilməməsi qadağan ola bilməz. Bununla yanaşı, Qanunda texniki tələb dedikdə nəyin nəzərdə tutulduğu qeyri-müəyyəndir. Belə ki, standart-

laşdırma və texniki tənzimləmə sahəsində mövcud normativ hüquqi aktlarda məcburi tələbləri müəyyən edən texniki-normativ akt texniki reqlament adlanır. Bu baxımdan müvafiq uyğunsuzluqların aradan qaldırılması üçün Qanunun IV fəslinin yenidən işlənilməsinə zərurət vardır.

Bu sahədə xüsusi əhəmiyyət kəsb edən normativ hüquqi aktlardan bir digəri "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" 2008-ci il 13 iyun tarixli 650-IIIQ nömrəli Azərbaycan Respublikasının Qanunudur. Həmin Qanun ekoloji təmiz kənd təsərrüfatının təşkil edilməsi ilə yanaşı bu sahədə sertifikatlaşdırma və markalanma ilə bağlı da bir sıra müddəaları ehtiva edir. Qanuna əsasən "*ekoloji təmiz kənd təsərrüfatı və qida məhsulları **"EKO-keçid"** və **"EKO"** sözləri göstərilməklə müvafiq akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumlar tərəfindən markalanır*". Bununla yanaşı, müvafiq sahədə Azərbaycan Standartlaşdırma İnstitutu tərəfindən "***AZS 921-2022** Ekoloji təmiz kənd təsərrüfatı və qida məhsullarının istehsalı, emalı, markalanması və satışı. Rəhbəredici tələblər*" standartı qəbul edilmişdir. Bütün bunlar ekoloji təmiz kənd təsərrüfatı məhsulları ilə ənənəvi kənd təsərrüfatı məhsullarının fərqləndirilməsini təmin edir. Lakin sözügedən standartın və Qanunun tətbiq dairəsi yalnız kənd təsərrüfatı və qida məhsulları ilə məhdudlaşır.

Yuxarıda qeyd olunan normativ hüquqi aktların təhlilinə əlavə olaraq, ekoloji sferada ölkədə mövcud standartlara da diqqət yetirmək lazımdır. Azərbaycan Standartlaşdırma İnstitutu tərəfindən hazırkı tarixədək ekoloji sferada 50-dən çox dövlət standartı qəbul edilmişdir [8]. Malın və ya xidmətin müvafiq standarta uyğunluğunun təsdiq edilməsi nəticəsində həmin malı istehsal edən və ya xidməti göstərən subyektə forması Nazirlər Kabineti tərəfindən təsdiqlənən uyğunluq nişanından istifadə hüququ verilir.

Beynəlxalq təcrübənin də təhlilindən göründüyü kimi, xarici dövlətlərin təcrübəsində ekoetiketləmə və sertifikatlaşdırma Azərbaycandan daha əvvəl təşəkkül tapmışdır. Bununla yanaşı, bir sıra xarici dövlətlərdə ekoloji standartlaşdırma sahəsində sənədlərin qəbul edilməsinin dövlət qurumları ilə yanaşı müstəqil təşkilatlar tərəfindən də həyata keçirilməsi təcrübəsi geniş yayılmışdır. Ölkəmizdə isə bu fəaliyyət milli standartlaşma qurumu olan Azərbaycan Standartlaşdırma İnstitutu tərəfindən dövlət standartlarının qəbul edilməsi yolu ilə həyata keçirilir. Lakin ölkəmizdə də standartlaşdırma haqqında qanunvericilikdə təsərrüfat subyektləri tərəfindən texniki şərtlərin qəbul edilməsinin mümkünlüyü təsbit edilmişdir.

**Nəticə**

Yuxarıda qeyd edilənlərə əsasən, ekoloji qanunvericiliklə, standartlaşdırma və texniki tənzimləmə sahəsində qanunvericilik aktlarının qarşılıqlı təhlili, eləcə də xarici dövlətlərin müvafiq sahədə təcrübələrinin təhlili nəticəsində qanunvericilikdə mövcud olan bir sıra kolliziyaları və mümkün inkişaf istiqamətlərini müəyyən etmək mümkündür. Bu məzmunda ekoloji qanunvericilikdə standartlaşdırma və sertifikatlaşdırma fəaliyyətinin inkişafı üçün ilk növbədə qanunvericiliyə müvafiq dəyişikliklər edilməlidir.

Bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi üçün "Ətraf mühitin mühafizəsi haqqında" Qanunun, ***ilkin olaraq,*** 1.8-ci və 20-ci maddələrinin ləğv edilməsi təklif edilir. Sözügedən təklif qanunvericilikdəki mövcud ***kolliziyaların*** aradan qaldırılmasını təmin edəcəkdir.

Qeyd edilən təklifdən başqa, ətraf mühitin mühafizəsi ilə bağlı bir sıra sahələrdə texniki reqlamentlərin qəbul edilməsi və bununla bağlı müvafiq tənzimləmənin "Ətraf mühitin mühafizəsi haqqında" Qanuna əlavə edilməsi məsələsinə baxıla bilər.

Əlavə olaraq, ölkədə standartlaşdırma fəaliyyətinin təşkili və xarici dövlətlərin təcrübələrinə uyğun olaraq ölkədə bu fəaliyyətin qurulmasında təsərrüfat subyektlərinin iştirakının geniş-

ləndirilməsi məqsədilə qanunvericilikdə müəyyən stimullar da nəzərdə tutula bilər. Bütün bunlar son nəticədə ekoloji təmiz məhsullar üçün xüsusi güzəştlərin tətbiqinə şərait yara bilər. Belə güzəştlərin tətbiqi isə ekoloji təmiz məhsulların dövriyyəsinin artmasına və ekoloji tənzimləmə baxımından xüsusi əhəmiyyət kəsb edən məlumatların əldə edilməsinə əsas verə bilər.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**


1. Blauer Engel. (n.d.). Eco-label history. (2025, February 9), from https://www.blauer-engel.de/en/blue-angel/our-label-environment/ecolabel-history
2. Zimmerman, G. (2005). Certified Green?. Building Operating Management. https://citeseerx.ist.psu.edu/document?repid=rep1&type=pdf&doi=6d53184c1e5c5241bcca8020b3f486abc75550fc
3. Brown, R., Webber, C., & Koomey, J. G. (2002). Status and future directions of the ENERGY STAR program. Energy, 27(5), 505-520. https://escholarship.org/content/qt7b9216hn/qt7b9216hn.pdf
4. U.S. Green Building Council. (n.d.). What is LEED certification? U.S. Green Building Council. (2025, February 9), from https://support.usgbc.org/hc/en-us/articles/4404406912403-What-is-LEED-certification
5. European Commission. (n.d.). About the EU Ecolabel. European Commission. (2025, February 9), from https://environment.ec.europa.eu/topics/circular-economy/eu-ecolabel/about-eu-ecolabel_en
6. Global Ecolabelling Network. (n.d.). What is ecolabelling? Global Ecolabelling Network. (2025, February 9), from https://globalecolabelling.net/about/what-is-ecolabelling/
7. International Organization for Standardization. (n.d.). ISO 14000 family - Environmental management. ISO. (2025, February 9),, from https://www.iso.org/standards/popular/iso-14000-family
8. Ekologiya və Təbii Sərvətlər Nazirliyi. (2025, February 10). Ekologiya üzrə Standartların Siyahısı. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi. https://eco.gov.az/az/nazirlik/ekologiya-uzre-standartlarin-siyahisi


**Алимусаев Эмин Назим оглу**

## СЕРТИФИКАЦИЯ В ЭКОЛОГИЧЕСКОМ ПРАВЕ: СУЩЕСТВУЮЩИЕ ПРОБЛЕМЫ И РЕШЕНИЯ

### РЕЗЮМЕ

Повышение экологической сознательности в свете таких факторов, как обострение экологических проблем, сокращение природных ресурсов и последствия изменения климата, заставило покупателей предпочесть экологически чистые продукты. Вследствие этого предприятия стали обращаться к сертификации, чтобы подтвердить, что их продукция не наносит вреда окружающей среде, что и послужило причиной создания экостандартов. В современном мире добровольное соблюдение экологических стандартов является одним из самых эффективных способов защиты окружающей среды. Однако в экологическом законодательстве Азербайджана существуют некоторые противоречия и проблемы, связанные с процессом стандартизации и сертификации. Данная статья посвящена возможностям совершенствования путем правового анализа экологического законодательства Азербайджанской Республики и лучших мировых практик.

**Alimusayev Emin Nazim**

## STANDARDIZATION AND CERTIFICATION IN ENVIRONMENTAL LEGISLATION: EXISTING PROBLEMS AND SOLUTIONS


### SUMMARY

Increased environmental awareness on the light of the factors such as the intensification of the environmental problems, decline of natural resources and impacts of the climate change caused customers to prefer eco-friendly products. Consequently, undertakings turned to certification to get their products confirmed that they do not damage environment and all this caused the establishment of the eco-standards. In the modern world voluntary compliance to the environmental standards is one of the most efficient ways for protecting the environment. However, there are some collusions and challenges about standardization and certification process in the environmental legislation of Azerbaijan.

The article focuses on the improvement possibilities by legal analysis of the environmental legislation of the Republic of Azerbaijan and the best practices in the world.


**Redaksiyaya daxilolma tarixi: 08.02.2025**
**Təkrar işlənməyə göndərilmə tarixi: 12.02.2025**
**Çapa qəbul olunma tarixi: 13.02.2025**